# Gəlir mübarəklə Həmrəylik günüm!

**Təqribən 5 min illik dövlətçilik tarixi olan Azərbaycan xalqı dünyanın ən qədim, ən zəngin dövlətçilik mədəniyyətinə malik xalqlarındandır. Ulu əcdadlarımız akkad-şumer mədəniyyətindən qaynaqlanaraq bu qədim, müqəddəs ərazilərimizdə bərqərar olmuş, özünün yüksək təsərrüfat həyatını, maddi-mənəvi mədəniyyətini yaratmış və inkişaf etdirmiş, dünyanın ən qədim və mədəni xalqlarından biri kimi tanınmışdır. Dünyanın istər mədəniyyət və incəsənət, istər elm və təhsil, istərsə də siyasi tarixinə Azərbaycan daim öz töhfəsini vermiş və bu tarixi daha da zənginləşdirmişdir.**

Tarix dəfələrlə sübut edib ki, milli özünüdərk, milli birlik və həmrəylik kimi keyfiyyətlərdən məhrum olan xalqlar gec-tez daha güclü xalqların təsiri altına düşərək, assimilyasiya olunur və öz simasını itirir. Müasir dünyanın qabaqcıl xalqlarından, millətlərindən biri olmaq üçün milli əzm, siyasi iradə nümayiş etdirmək, bir millət kimi beynəlxalq nüfuz qazanmaq lazımdır. Bu mənada həm Azərbaycanda yaşayan, həm də müxtəlif səbəblərdən dünyaya səpələnmiş azərbaycanlılar xalqımızın, millətimizin gələcəyi naminə möhkəm həmrəylik və mütəşəkkillik nümayiş etdirməlidirlər. Dünya azərbaycanlılarının harada məskunlaşmalarından asılı olmayaraq, ən mühüm, ən müqəddəs vəzifələrindən biri Azərbaycan xalqının tarixi nailiyyəti, bütün dünya azərbaycanlılarının mənəvi-siyasi iradəsinin nəticəsi olan müstəqil dövlətçiliyimizi qoruyub saxlamaqdan, milli dövlətimizin dünya birliyində özünəməxsus yer tutmasına çalışmaqdan ibarətdir.

Unutmaq olmaz ki, müstəqil Azərbaycan dövlətinin mövcudluğu, onun demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu yolu ilə irəliləməsi yalnız Azərbaycan Respublikası vətəndaşlarının deyil, bütün azərbaycanlıların müstəqillik və dövlətçilik təfəkkürünün inkişafına, onların həmrəyliyinə təkan verir, mədəni bir etnos kimi Azərbaycan xalqına beynəlxalq nüfuz gətirir. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların mədəni-siyasi birliyi, həmrəyliyi müstəqil Azərbaycan Respublikasının və bütün dünya azərbaycanlılarının mənafeyinə uyğundur, onun əsas strateji məqsədlərindən biridir. Vətənindən ayrı düşmüş hər bir azərbaycanlı əmin olmalıdır ki, onun nüfuzunu, şərəfini qorumağa həmişə hazır olan bir dövlət - Azərbaycan Respublikası vardır.

Soydaşlarımızın əksəriyyəti başqa xalqlar içərisində azərbaycançılığı, milli xüsusiyyətlərimizi, adət-ənənələrimizi, dilimizi qoruyub saxlaya bilmiş və övladlarına ötürmüşlər. Amma bir həqiqət də qeyd olunmalıdır ki, ayrı-ayrı cəhdlərə baxmayaraq, uzun bir tarixi dövr ərzində dünya azərbaycanlıları mütəşəkkillik nümayiş etdirə bilməmiş, təşkilatlanmamış, icmalar, diaspora şəklində təmsil olunmamış, dağınıq şəkildə yaşamışlar. Bu da sözsüz ki, milli əlaqələrin və müvafiq olaraq milli varlığın zəifləməsinə şərait yaratmışdır.

Xoşbəxtlikdən bu gün dünya azərbaycanlılarının əsl milli özünüdərk və ümummilli ideya - azərbaycançılıq, müstəqil dövlətçilik və milli-mənəvi dəyərlər ətrafında birləşməsi prosesi başlamışdır.

XX əsrin 80-ci illərinin axırlarında dünyada baş verən proseslərlə əlaqədar bir çox xalqların, o cümlədən Azərbaycan xalqının özünüdərki, həmrəylik hissi gücləndi. İctimai həyatın demokratikləşməsi istiqamətində genişlənən xalq hərəkatı zəminində ilk olaraq Naxçıvan Muxtar Respublikasının 1989-cu ilin noyabrında Şimali və Cənubi Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə əsassız çəkiliş sərhəd çəpərlərinə qarşı xalqın etirazı başlandı. Beləliklə, "Sərhəd hərəkatı" adı ilə başlanan bu siyasi aksiya 1989-cu il dekabrın 31-də azərbaycanlıların həmrəylik hərəkatına çevrildi.

1990-cı il noyabrın 3-5-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan Türk dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasında başlamış hərəkatın davamı kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il Həmrəylik Günü kimi qeyd edilməsinin vacibliyi irəli sürüldü. Bütün bunları nəzərə alaraq ümummilli liderimiz Heydər Əliyevin başçılıq etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli iclasında 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi qərara alındı.

Naxçıvan MR Ali Məclisinin bu qərarını əsas tutaraq Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası 1991-ci il dekabrın 25-də qərara gəldi ki, hər il dekabrın 31-i dünyada yaşayan azərbaycanlıların Həmrəylik Günü kimi qeyd edilsin.

Müstəqillik qazanıldıqdan sonra əldə olunan nailiyyətlər sayəsində bütün dünya azərbaycanlılarının milli hüquqlarının, beynəlxalq haqlarının həyata keçirilməsinə geniş imkanlar açılmışdır. 2001-ci il noyabrın 10-da Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamına müvafiq olaraq Bakı şəhərində Dünya azərbaycanlılarının birinci qurultayı keçirildi. Qurultayda 36 ölkədən gəlmiş 1105 nümayəndə, 906 qonaq iştirak edirdi. Qurultayda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin söylədiyi proqram səciyyəli nitqinin aparıcı xəttini belə bir tezis təşkil edirdi: "Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik".

Qurultay göstərdi ki, qüdrətli Azərbaycana gedən yol bütün azərbaycanlıların milli birliyindən keçir. Qurultay dünyanın müxtəlif qütblərinə səpələnmiş soydaşlarımızın bir araya gətirilməsi vəzifəsinin həyata keçirilməsi istiqamətində atılmış ilk ciddi və qəti bir addım idi. Qurultay Azərbaycanın Avratlantika məkanına inteqrasiyasına kömək edəcək diasporumuzun inkişafında həlledici əhəmiyyətə malik qərarlar qəbul etdi.

Türk dünyasının böyük lideri Heydər Əliyev çoxminillik tariximizdə dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən böyük dövlət xadimi oldu. Azərbaycan dövləti Dünya azərbaycanlılarının I qurultayının qərarlarının əməli surətdə həyata keçirilməsi üçün bir sıra işlər gördü. O cümlədən, 2002-ci il iyulun 5-də Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. 2008-ci ildə isə bu qurumun adı dəyişdirilərək Diaspor ilə İş üzrə Dövlət Komitəsi adlandırılmışdır.

Ümummilli liderin ideya və prinsiplərinə sadiq qalan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-cı il fevralın 8-də Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında sərəncam imzaladı. Həmin il martın 16-da dünya azərbaycanlılarının II qurultayı böyük təntənə ilə keçirildi. Qurultay xaricdə yaşayan azərbaycanlıların problem və qayğılarını, onların birliyi və təşkilatlanması sahəsindəki mövcud vəziyyəti təhlil etdi. Qurultayda xaricdə yaşayan azərbaycanlıların ölkəmizlə əlaqələrinin daha da möhkəmləndirilməsinə, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına, diaspor quruculuğu işinin təkmilləşdirilməsinə dair qərarlar qəbul edildi. Dünya azərbaycanlılarının II qurultayı müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın bir bayraq altında birləşməsi istiqamətində irəliyə doğru atılmış növbəti bir qətiyyətli addım oldu.

Müxtəlif mənbələrdən verilən məlumatlara görə, bu gün dünyada yaşayan azərbaycanlıların sayı 50 milyondan çoxdur. Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə onları söz-sovqatımla təbrik edirəm.

***Gəlir mübarəklə həmrəylik günüm!***
*Verildi möhtəşəm tarixi qərar,*
*Yarandı öz milli birliyim, ünüm.*
*Həmrəylik günümüz verir bəhər, bar,*
*Gəlir mübarəklə Həmrəylik günüm!*
*31 dekabr tarixi gündür,*
*Həmrəylik günümüz tarixə döndü.*
*Sabaha inamla baxırıq indi,*
*Gəlir bər-bəzəklə Həmrəylik günüm!*
*Gəlir gündoğandan, Altay, Turandan,*
*Gəlir Türkiyədən, İraq, İrandan.*
*Halallıq əxz edib nurlu "Quran"dan,*
*Gəlir duz-çörəklə Həmrəylik günüm!*
*Soydaşlar uzun bir yol keçib gəlir,*
*Doğmalar sevinclə göz yaşın silir.*
*Odlar diyarını səcdəgah bilir,*
*Gəlir gül-çiçəklə Həmrəylik günüm!*
*Səsimiz yayılır böyük cahana,*
*Vətən, yurd sevgisi hopubdu qana,*
*Əbədi müstəqil Azərbaycana,*
*Gəlir xoş diləklə Həmrəylik günüm!*

**Oqtay ZƏNGİLANLI.**

Respublika 2019.- 30 dekabr.- S.7.